# 745 Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələri Komandanlığı arasında TCG AB-34(P-134) hücum katerinin Azərbaycan Respublikasına verilməsi haqqında Protokolun təsdiq edilməsi barədə

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN
SƏRƏNCAMI

1. 2000-ci il iyulun 17-də İzmir şəhərində imzalanmış Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələri Komandanlığı arasında TCG AB-34(P-134) hücum katerinin Azərbaycan Respublikasına verilməsi haqqında Protokol **təsdiq edilsin.**

2. Azərbaycan Respublikasının Müdafiə Nazirliyinə tapşırılsın ki, bu Sərəncamın 1-ci bəndində göstərilən Protokolun həyata keçirilməsi üçün lazımi tədbirlər görsün.

**Azərbaycan Respublikasının Prezidenti HEYDƏR ƏLİYEV**

Bakı şəhəri, 21 oktyabr 2000-ci il
№ 552

## Azərbaycan Respublikası Müdafiə Nazirliyi və Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələri Komandanlığı arasında TCG AB-34 (P-134) hücum katerinin Azərbaycan Respublikasına verilməsi haqqında

## PROTOKOL

1. Bu Protokol 17 iyul 2000-ci il tarixində Azərbaycan Respublikası adından Azərbaycan Respublikası Müdafiə Nazirliyi ilə Türkiyə Respublikası adından Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələri arasında imzalanmışdır.

2. Türkiyə tərəfi TCG AB-34 (P-134)-ün bütün təchizatı ilə birlikdə satış və ya kirayə şərtləri olmadan "A" saylı əlavədə göstərildiyi kimi ümumi şərtlər çərçivəsində Azərbaycan tərəfinə verilməsini qərara almışdır.

3. Tərəflər aşağıdakı halları əsas tutmalıdırlar:

a) Əvəzsiz olaraq Azərbaycan Respublikasına verilən TCG AB-34 (P-134)-ün təslimatına dair bu Protokolun müddəti yuxarıda göstərilən tarixdən etibarən 10 ildir və "A" saylı əlavədə göstərilən ümumi şərtlərə tabedir.

b) Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələri TCG AB-34 (P-134)-ü Azərbaycan Respublikasının Hərbi Dəniz Qüvvələrinə 17 iyul 2000-ci il tarixində Türkiyə Respublikasının İzmir limanında təslim edəcəkdir.

c) Bu Protokol Azərbaycan, türk və ingilis dillərində iki nüsxədən ibarət olaraq hazırlanmışdır, ingilis dilindəki mətn əsas qəbul ediləcəkdir.

Bu Protokol 17 iyul 2000-ci il tarixindən etibarən qüvvədədir.

A saylı əlavə (ümumi şərtlər)

| Azərbaycan Respublikası Müdafiə Nazirliyinin nümayəndəsi | Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələrinin nümayəndəsi |
| --- | --- |
| Adı: ŞAHİN SULTANOV | Adı: TANER BALKIŞ |
| Rütbəsi: 1-ci dərəcəli kapitan | Rütbəsi: vitse-admiral |
| Ünvanı: HDQ Komandanı | Ünvanı: HDQ MTT Rəisi |

"A" SAYLI ƏLAVƏ

### ÜMUMİ ŞƏRTLƏR

### 1. İstifadə

a) Azərbaycan Respublikası TCG AB-34 (P-134)-ü öz nəzarətində saxlayaraq mühafizə edəcəkdir. Azərbaycan Respublikası TCG AB-34 (P-134)-ü başqa bir ölkəyə verməyəcəkdir.

b) Azərbaycan Respublikası TCG AB-34 (P-134)-ü xüsusi iqtisadi bölgədə, dəniz sərhədlərinə nəzarət etmək məqsədi ilə istifadə edəcəkdir.

### 2. Verilmə şərti

TCG AB-34 (P-134) Azərbaycan Respublikasına hal-hazırda olduğu vəziyyətdə verilir.

### 3. TCG AB-34 (P-134)-ün nəzarəti və inventarı

TCG AB-34 (P-134)-ün Azərbaycan Respublikasına təhvil verilməsi astanasında katerin hal-hazırdakı fiziki vəziyyəti və inventarı hər iki tərəfdən müştərək olaraq müəyyən ediləcəkdir. Bu müəyyənliklər dəlil olması məqsədi ilə Protokol halında tərtib olunacaq və imzalanacaqdır.

### 4. Texniki xidmət və təmir

Azərbaycan Respublikası TCG AB-34 (P-134)-ün bütün növ təmir və texniki xidmətini öz imkanları vasitəsi ilə həyata keçirəcəkdir. Texniki xidmət və təmir prosesi zamanı ehtiyat hissəyə ehtiyac Türkiyə Respublikası Hərbi Dəniz Qüvvələri tərəfindən təmin ediləcəkdir.

### 5. Protokolun bitməsi

Bu Protokol:

a) Hər iki tərəfin qarşılıqlı anlaşması ilə;

b) Azərbaycan tərəfinin istəyinin 30 gün əvvəl yazılı surətdə bildirilməsi ilə;

c) birinci maddədəki şərtlərin yerinə yetirilməməsi halında Türkiyə Respublikasının 30 gün əvvəl yazılı surətdə bildirməsi ilə;

d) 10 illik müddətin sonunda tərəflər Protokolun başa çatmasını tələb etmədiyi halda bu Protokol daha 10 il müddətinə uzadılır.

Təhvil Protokolunun başa çatması halında Azərbaycan tərəfi TCG AB-34 (P-134)-ü Türkiyə Respublikasına geri verəcəkdir.

### 6. Təhvil vermə yeri

Protokolun müddətinin bitdiyi halda qarşılıqlı razılaşmaya əsaslanaraq TCG AB-34 (P-134) İzmir limanında geri təhvil veriləcəkdir.

### 7. Mülkiyyət

TCG AB-34 (P-134) Türkiyə Respublikasının mülkiyyəti olaraq qalacaqdır. Azərbaycan tərəfi TCG AB-34 (P-134)-dən öz bayrağı altında yuxarıdakı şərtlər əsasında istifadə edəcəkdir.

**Azərbaycan Respublikası**
**Müdafiə Nazirliyinin**
**nümayəndəsi**

Adı: **ŞAHİN SULTANOV**
Rütbəsi: 1-ci dərəcəli kapitan
Ünvanı: HDQ Komandanı

**Türkiyə Respublikası**
**Hərbi Dəniz Qüvvələrinin**
**nümayəndəsi**

Adı: **TANER BALKIŞ**
Rütbəsi: vitse-admiral
Ünvanı: HDQ MTT Rəisi

Azərbaycan Respublikasının Qanunvericilik toplusu.- 2000.- 31 oktyabr, № 10.- S.4294-4296.